8. Самоходкина Н.В. Оперный стиль А.С. Даргомыжского/ Учебное пособие./ Ростов на Дону. 2010.
Saytoqrafiya:
9. https://skudelnica.ru/az/former/kompozitor-aleksandr-dargomyzhskii-biografiya-tvorcheskoe-nasledie.html.
10.https://499c.ru/az/vse-proizvedeniya-dargomyzhskogo-kompozitor-a-s-dargomyzhskii-biografiya/.
11. https://aleksandra-med.ru/az/nuzhno-znat/osnovnye-proizvedeniya-dargomyzhskogo-obshchie-svedeniya-znachenie-kamennogo.html.

## ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКИЕ ПРИНЦИПЫ АЛЕКСАНДРА СЕРГЕЕВИЧА ДАРГОМЫЖСКОГО

***Набиева Лейла Мазахир кызы***

***Резюме***

Мировоззрение А.С.Даргомыжского, его музыкально-эстетические принципы формировались в 30-40 гг. XIX века. Это были годы нового направления в литературе, живописи, музыке, когда русская культура быстро развивалась, стремясь к периоду своего наивысшего расцвета. В его творчестве нашли свой отклик огромные изменения, происходившие в общественной, идейной, художественной областях России первой половины XIX века.

## ARTISTIC AND AESTHETIC PRINCIPLES ALEXANDR SERGEYEVICH DARGOMYZHSKY

***Nabiyeva Leyla Mazahir***

***Summary***

The worldview of A.S.Dargomyzhsky, his musical aesthetic principles were formed in the 30-40s. XIX century. These were the years of a new direction in literature, painting, music, when Russian culture was developing rapidly, striving for the period of its highest prosperity. In his work, the huge changes that took place in the social, ideological, and artistic areas of Russia in the first half of the 19th century found their response.

***Rəyçi: Sənətşünaslıq elmləri namizədi, dos. İ.Abdurəhmanova***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 11 mart 2021-cu il tarixli kafedra iclasının 09 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:781**

## L.V.BETHOVENİN YARADICILIQ İRSİNƏ BİR NƏZƏR

***Rəfibəyli Lalə Hakim qızı***
***Gəncə Dövlət Universiteti***
***rafibeylilalagmail.ru***

**Xülasə:** *Məqalədə Vyana klassik məktəbinin tanınmış nümayəndəsi bəstəkar Lüdviq Van Bethovenin (1770-1827) yaradıcılıq irsi araşdırılmışdır.*

*Lüdviq Van Bethovenin yaradıcılığını klassitsizimdən romantizmə keçid olaraq qiymətləndirirlər. Bəstəkarın yaradıcılığında hər iki sənət cərəyanının xüsusiyyətləri aydın görünür.*

*Bethoven yaradıcılığının səciyyəvi cəhətlərdən biri də janr müxtəlifliyidir. Bəstəkar yaradıcılığında - opera, balet, simfoniya, uvertüra, fortepiano ilə orkestr üçün konsert, skripka ilə orkestr üçün konsert, fortepiano, skripka, və violonçel ilə orkestr üçün üçqat konsert, xor əsərləri, skripka və fortepiano üçün sonata, violonçel və fortepiano üçün sonata, fortepiano üçün sonata və pyes, eləcə də mahnı kimi bütün janrlara müraciət etmişdir.*

*Bəstəkar hər bir janrda özünü əsl novator kimi göstərə bilmişdir. Onun incəsənəti milli alman musiqisi çərçivəsindən kənara çıxaraq bütün bəşəriyyətə məxsusdur.*

**Açar sözlər:** Vyana, klassik, bəstəkar, musiqi, tarix, janr.

**Ключевые слова:** Вена, классик, композитор, музыка, история, жанр.

**Key words:** Vienna, classic, composer, music, history, genre.

"Azadlıq və inkişaf... budur incəsənətin məqsədi" söyləyən dünya şöhrətli dahi alman bəstəkarı L.V.Bethoven dəfələrlə qeyd etmişdir ki, musiqi həmişə məzmunlu olur və hər bir, həqiqi musiqi əsərində müvafiq ideya vardır [6. 196].

L.V.Bethovenin yaradıcılıq irsinə nəzər salarkan bu fikrin əyani təsdiqini görürük.

L.V.Bethoven musiqi mədəniyyətinə təsir göstərmiş dahiyanə şəxsiyyətlərdən biridir. İlk dəfə olaraq məhz Bethoven öz əsərlərində geniş xalq kütlələrini, bütün bəşəriyyəti azadlığa, bərabərliyə, qardaşlığa çağırmış, musiqidə yeni, mütərəqqi ideyaları, qabaqcıl fikirləri əks etdirə bilmişdir. Buna görə də, Stasov yazır ki, "Bethoven düşündürən tarix və bütün bəşəriyyət idi" [3. 71].

Vyana klassik məkdəbinin nümayəndələri – Y.Haydın, V.A.Motsart, L.V.Bethoven yaradıcılığında klassitsizm ən yüksək səviyyəsinə çatmışdır. İnsan təbiətinin harmonikliyi ideyası, təbiətdə və həyatda hadisələrin gedişini idarə edən vahid qaydanın mövcudluğu klassitsizmin əsasını təşkil edir. Bu bəstəkarların hər biri parlaq yaradıcılıq fərdiliyinə malikdir.

Klassitsizmdən romantizmə keçid dövründə Bethovenin yaradıcılığı həlledici rol oynayır. Onun son əsərlərində romantizmə xas cizgilər özünü biruzə verir. Bəstəkar yaradıcılığının son dövründə məhz romantik cərəyan üçün səciyyəvi olan vokal silsilə janrına müraciət etmiş, altı mahnıdan ibarət "Uzaq sevgilimə"adlı vokal silsiləni yaratmışdır.

İyirmi yaşlarından tədricən, sonralar isə tamamilə eşitmə qabiliyyətini itirməsinə baxmayaraq bəstəkar dünya musiqi mədəniyyətini bəzəyən möhtəşəm əsərlərini yarada bilmişdi.

Bəstəkarın yaradıcılığı Fransa burjua inqilabi dövründə formalaşmışdır. Bu ərəfədə insanlarda ruh yüksəkliyi, qəhramanlıq əhval-ruhiyyəsi hökm sürürdü və bu əhval-ruhiyyə Bethovenin yaradıcılığında özünü birüzə vermişdir. Bəstəkarın yaradıcılığında fransız inqilabi mahnılarının, həmçinin xalq rəqslərinin intonasiyaları öz əksini tapır.

Bethovenin musiqisi qəhramanlıq hissləri ilə əhatə olunmuşdur. Bu musiqi insan kədərini yayındırmağa, eləcə də onu xoşbəxt həyata inandırmağa qadirdir. Bəstəkarı bir insanın, bir şəxsin taleyi, duyğuları, estetik ideyaları yox, daha çox bir xalqın, bir millətin, hətta bəşəriyyətin taleyi maraqlandırırdı. Onun əsərlərində mövzular, ideyalar bəşəri xarakter daşıyır.

Bethovenin yaradıcılığı bütün dünyada belə dinləyicilərin sönməz sevgisini qazanmışdır. Bir çox məşhur bəstəkarlar, bu sırada D.Şostakoviç, S.Prokofiyev, Q.Qarayev, F.Əmirov, C.Hacıyev və başqaları tükənməz bir mənbə olaraq Bethoven yaradıcılığından çox şey öyrənmişlər [5. 77].

Bethoven yaradıcılığının səciyyəvi cəhətlərdən biri də janr müxtəlifliyidir. Bəstəkar yaradıcılığında opera, balet, simfoniya, fortepiano üçün sonata və pyeslər, eləcə də mahnı kimi bütün janrlara müraciət etmişdir. O özünü, hər bir janrda əsl novator kimi göstərmişdir.

Bethoven öz dövrünün görkəmli pianoçusu olmuş və bir çox fortepiano əsərləri yazmışdır. Bunların içərisində sonatalar xüsusilə böyük əhəmiyyətə malikdir. Əgər ilk simfoniyasını Bethoven 30 yaşında ikən yazıbsa, sonata janrına yaradıcılığının erkən çağından başlayaraq bütün ömrü boyu müraciət etmişdir [2. 23].

Bethoven sonatanın həcmini genişləndirmiş və məzmununu, fakturasını, musiqi dilini zənginləşdirmişdir. Bəstəkar ilk növbədə sonata janrında yaradıcılıq eksperimentlərini həyata keçirmiş və yanlız sonra bunları simfonik əsərlərində tətbiq etmişdir. Çox vaxt bəstəkarın fortepiano sonatasını "yaradıcılıq laboratoriyası" adlandırırlar. Bethoven ilk bəstəkardır ki,

sonataları polifonikləşdirir. Bəstəkarın son sonataları üçün məhz bu cəhət səciyyəvidir. Məsələn, 28-ci, 29-cu, 30-cu sonatalarının finallarına bəstəkar fuqa əlavə etmişdir. Bəstəkarın son beş sonatasında (1816-1822-ci ilərdə bəstələnmişdir) üstünlük təşkil edən lirik ovqat, fəlsəfi düşüncələr romantizmə xas olan cəhətlərin təzahürüdür.

Bethovenin simfoniyaları Avropa simfonizminin inkişafının kulminasiya nöqtəsini təşkil edir. Bəstəkar simfoniyanın həcmini genişləndirərək, dramatikliyini artıraraq bu janrı xeyli zənginləşdirmişdir. L.V.Bethovenin ən məşhur əsərlərindən biri olan 3-cü simfoniyası ağır mübarizədən çıxmış xalqın sevincini, şadlığını ifadə edir. Bu əsər əvvəlcə B.Napoleona həsr edilmişdir, lakın Napoleon özünü imperator elan etdikdən sonra bəstəkar fikrindən daşınır və simfoniyanı “Qəhramani” adlandırır. Bəstəkarın şagirdlərindən birinin yazdığına görə, bu xəbərdən həyacanlanan Bethoven “Bu da (Napoleon) sıravi bir adamdır! İndi, bütün insan hüquqlarını məhdudlaşdıracaq, yalnız öz şöhrətpərəstliyinə qulluq edəcək, özünü başqalarından üstün tutacaq və zalım hökmdara çevriləcək” deyib, simfoniyasının başlıq səhifəsini yuxardan aşağı cırıb yerə atdı [5. 75].

Bəstəkarın 5-ci simfoniyası da geniş şöhrət tapmış əsərlərdəndir. Həmin musiqini Bethoven “Tale qapını döyür” bədii ifadəsi ilə şərh edir. Bu simfoniya dünyanın bütün konsert salonlarında səslənir, milyonlarla insanın qəlbini fəth etməkdədir.

9-cu simfoniya isə bəstəkarın yaradıcılığında qəhramanlıq simfoniyası silsiləsini bitirir. Bu simfoniyada bəstəkar ilk dəfə olaraq, simfonik janrı vokal janrla birləşdirərək, əsərin finalında Şillerin “Şənliyə doğru” odasından istifadə edir. Finalın musiqisi böyük təsir qüvvəsinə malikdir – bəstəkarın “Qucaqlaşın, ey milyonlar” çağırışı bütün insanları sülhə çağırır. Təsadüfi deyil ki, Avropa İttifaqı kimi bir qurum “Şənliyə doğru” odasını özünə himn kimi götürüb (1972).

Bethovenin əsərləri içərisində instrumental konsertlər də əhəmiyyətli yer tutur. Bəstəkarın instrumental konsertlərində hər bir musiqi alətinin ifaçılıq xüsusiyyətlərini, onların texniki imkanlarını mükəmməl bir şəkildə bildiyini müşahidə etmək mümkündür. Onun instrumental konsertlərində də ümumbəşəri fəlsəfi-etik ideyalar ifadə olunur.

L.V.Bethoven sintetik səhnə janrı olan operaya da müraciət etmiş və “Fidelio” (1814) kimi möhtəşəm bir musiqili səhnə əsərini yaratmışdır.

“Bethoven operada orkestrin rolunu xüsusilə önə çəkmişdir, hətta mütəxəssislərin də göstərdikləri kimi bəzən orkestr vokal partiyalarla eyni səviyyədə səslənir” [ 5. 92.].

L.V.Bethovenin səhnə əsərlərindən biri də 1800-ci ildə Vyana şəhərində səhnəyə goyulmuş “Prometey” baletidir. Baletin musiqisi uvertüradan, girişdən və on altı rəqs nömrələrindən ibarətdir. Onu da qeyd edək ki, Bethovenin ilk uvertürası məhz balet üçün yazılmışdır.

L.V.Bethovenin yaradıcılığında ən ğözəl əsərləri qəhramani mübarizə mövzusu təşkil edirir. Bunlardan 3-cü, 5-ci, 9-cü simfoniyalar, “Eqmont” uvertürası, 23 saylı fortepiano sonatası (“Appasionata”), “Fidelio” operası, “Prometey” baleti qəhramani mövzuya həsr olunan əbədiyaşar əsərlərdir.

### *Ədəbiyyat*

1. Əfəndiyeva E. “Musiqi tarixi” (Qərbi Avropa musiqi tarixi). Bakı, 2014.
2. Həsənova Ş. “Musiqi tarixindən mühazirələr”. I hissə. Bakı, 2008.
3. Hüseynova E., Kərimova N., Dadaşzadə K., Tağıyeva S, İskəndərova N. “Musiqi tarixi”. Bakı, 2009.
4. Qurbanəliyeva S. “Şəxsiyyət və musiqi”. Bakı, Adiloğlu, 2010.
5. Qurbanov B. “Musiqi dünyasının unudulmazları”. Bakı, Avropa nəşriyyatı, 2015.
6. “Müdrik fikirlər aləmində”. Bakı, 1975.
Rus dilində:
7. Галацкая Б. “Музыкальная литература зарубежных стран” Вып. III. Москва, 1974
Saytoqrafiya

1. www.belthjven.ru
2. www.dw.com
3. www.belconto.ru
4. www.ncp.ge

## ВЗГЛЯД НА ТВОРЧЕСКОЕ НАСЛЕДИЕ ЛЮДВИГ ВАН БЕТХОВЕНА

***Рафибейли Лала Хаким кызы***

***Резюме***

Третий и последний представитель классической венской школы Л.В.Бетховен один из гениев, оказавших влияние на мировую музыкальную культуру. Одним из важных аспектов творчества Бетховена является разнообразие жанра. Он смог показать себя настоящим новатором в каждом жанре.

## A LOOK AT THE CREATIVE HERITAGE OF LUDWIG VAN BEETHOVEN

***Rafibeyli Lala Hakim***

***Summary***

L.V.Bethoven, the third and last representative of the classical Vienna school, is one of the geniuses who influenced musical culture. The composer known in the history of music as an innovator. One of the important aspects of Beethoven's work is the diversity of the genre. He was able to show himself as a real innovator in every genre.

***Rəyçi: GDU-nun "Musiqi fənləri" kafedrasının baş müəllimi S.Rüstəmova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasının 09 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:781.**

## FRİDERİK ŞOPENİN HƏYAT VƏ YARADICILIĞI

***Şabanova Sevil Ağaəli qızı***
***Gəncə Dövlət Universiteti***
**Sevashabanova62@gmail.com.**

**Xülasə:** *Məqalə dahi polyak bəstəkarı və pianoçusu, romanrizmin parlaq nümayəndəsi Friderik Şopenin yaradıcılıq yolunun öyrənilməsinə həsr olunub. Artıq iki əsrdən çoxdur ki, F.Şopenin yaradıcılıq irsi dünya mədəniyyətində mühüm yer tutur. Şəxsiyyətin humanist potensialının formalaşmasına güclü təsir göstərən, yüksək bədii dəyərə malik onun əsərləri konsert və tədris repertuarlarında geniş yer tutur.*

*Aparılan elmi-tədqiqat işinin nəticələri göstərir ki, bəstəkarın musiqi tarixində müstəsna əhəmiyyəti məhz onun fortepiano yaradıcılığı ilə bağlıdır. Bir neçə əsər istisna olmaqla onun onun bütün yaradıcılığı fortepiano musiqisinə həsr olunub. Şopen fortepiano üçün 4 ballada, 4 skertso, 27 konsert etüdü, 24 prelüd, 21 polonez, 58 mazurka, 18 vals, 21 noktürn və s. əsərlərin müllifidir.*

*Şopenin bütün əsərlərində Vətən mövzusunu böyük məhəbbətlə təcəssüm etdirilib. Vətənin təbiətini, xalqının tarixini, həyatını, adət və ənənələrini bəstəkar fortepiano musiqisi ilə tam dolğun əks etdirə bilmişdir. Çox vaxt Polşanın obrazını canlandırmaq üçün bəstəkar mazurka ritmindən istifadə edir. Milli polyak rəqsi olan mazurka Şopen üçün Polşanın bir rəmznə çevrilmişdir.*

**Açar sözlər:** bəstəkar, pianoçu, yaradıcılıq, musiqi, romantizm
**Ключевые слова:** композитор,пианист,творчество, музыка, романтизм
**Key words:** composer, pianist, art, music, romance